# İl-ildən uğurlu gəlir

***Məni qınasalar da, qınamasalarda kitabxanaçı ömrünü şam ömrünə bənzədəcəyəm. Bəzən özü də hiss etmədən o da şam kimi gilə-gilə, qətrə-qətrə ömrünü, illərini, aylarını, günlərini əridir. Kitabların ömrünü uzatmaq naminə, insanlara nəcib, xeyirxah xidmət naminə.***

***Bu qəlbi həmişə xalqı ilə birgə döyünən, onun yolunda ömrünü fəda edən cəfakeş, əvəzedilməz mərhum prezidentimiz H.Əliyevin ölməz sözləridir.***

H.Əliyev demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün, müqəddəs bir mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Lerik rayonunun "Azərbaycan" kənd kitabxanası 1956-cı ildən fəaliyyətini davam etdirir. Vizəzəmin sovetliyindən gətirilmiş 250 nüsxəyə yaxın kitab darısqal bir otaqda yerləşdirilmişdir. Mən 1956-cı ildən bu kitabxanaya müdir seçildim. Oxucularda kitaba maraq oyatmağa başladım. Orta məktəbin müəllimləri ilə əlaqə saxladım, yerli şəraiti nəzərə aldım, qarşıda duran konkret vəzifələri götür qoy etdim, ziyalılarla, mütəxəssislərlə söhbət apardım. Bütün bunlar səmərəsiz qalmadı.

1980-ci ildə kitabxana yeni və yaraşıqlı binaya köçürülmüş, iş şərati yaxşılaşdırıldı. Keçən il 5226 nüsxə kitabın "550" nəfər oxucusu oldu. Kitabxananının xidmətindən Azərbaycan, Babagil və 4-cü km kəndlərinin sakinləri də istifadə edir. 2 yerdə səyyar kitabxana filialı yaradılmışdır.

Kitabxanada 8 şəxsi kitabxana, 9 nəfərdən ibarət kitabxana şurası, 12 nəfər təşviqatçı, 15 nəfər kitabxana filialı, 5 nəfər mühazirəçi, 13 nəfər təbiəti mühafizə klubun üzvü fəaliyyət göstərirlər.

5 nəfər "Təşəbbüs" divar qəzeti hər ay, bəzən ayda iki dəfə buraxır. Bu işdə Azərbaycan kənd orta məktəbinin müəllimi Ənvər Cəfərovun əməyi daha çoxdur. İlk dəfə kitabxanaya üzv olanlara Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önündə kartoçkalara imza edirlər, oxuculara dəyərli məsləhətlər verilir. Belə tədbirlərlə oxucuların hafizəsində dərin iz buraxır, onların kitaba marağını artırır. Bundan başqa Qarabağda şəhid olmuş "Namaz Muradovun həyatı barədə oxuculara ətraflı danışılır. Kitablar haqqında hikmətli sözləri xatırlayırıq.

"Kitab bilik mənbəyidir", "Kitab əvəzsiz söz mənbəyidir", "Kitab olmasa insan kamala çata bilməz" və s.

Kitab və onun əhəmiyyəti haqqında divara müdriklərin fikirləri yazılmışdır. Aristotelin, F.Volter, M.Qorki, N.Gəncəvinin, M.Ə.Sabirin, A.Puşkinin, L.Tolstoyun, V.Şekspirin və başqalarının qiymətli sözləri Azərbaycan xalq məsələləri buna misal ola bilər. Kitabxanaya daxil olarkən onun işi və xidmətilə ilk tanışlıq əyani təşviqat nümunələrindən başlanır.

Giriş qapısının üzərində yazılmışdır.

Əziz oxucular!

Biliklərə yiyələnmək asan iş deyil. Bu işdə kitablar Sizə sadiq dost, köməkçi və məsləhətçi olacaqdır.

Kitablarda bir çox maraqlı və faydalı məlumatlar olacaqdır. Bunun üçün Siz onu qorumalı, sevməli və mühafizə etməlisiniz. Çünki Sizdən sonra, Sizin kiçik bacı və qardaşlarınız, dostlarınız və yoldaşlarınız onu oxumalı olacaq".

Kitabxana insan ruhunun bütün zənginliklərinin xəzinəsidir. Məhz bu xəzinədən istiqaməti kitabxanaçı təmin etməlidir. Biz kitabxanada müxtəlif tədbirlər, ədəbi-bədii gecə, kitab müzakirələri, sual-cavab gecələri, daimi və müvəqqəti sərgilər təşkil edirik. Bütün dövlət bayramlarını-Yeni il, "20 Yanvar Şəhidləri", "Xocalı soyqırımı"nın 12 illiyi", "8 mart-Beynəlxalq Qadınlar bayramı", "Novruz bayramı", "Qələbə", "Qurtuluş", "Silahlı Qüvvələr" günləri, "Azərbaycan Cümhuriyyətinin 86 illiyi, "Azərbaycan Respublikasının müstəqilliyinin 12 illiyi", "H.Aslanovun anadan olmasının 94 illiyi", "Sönməyən Günəş - Heydər Əliyevin həyatı və yaradıcılığı" burada geniş foto sərgisi təşkil edilmişdir.

Eyni zamanda "Məmməd Əmin Rəsulzadənin 120, İ.Əfəndiyevin 90, Q.Zakirin 220, N.B.Vəzirovun -150, M.Şəfi Vazehin 210, M.Füzulinin 510 illiyi, C.Cabbarlının 105 illik yubileylərinə həsr olunmuş kitab sərgiləri təşkil edilmişdir.

Kitabxanamız rayon Hərbi Komissarı Məhəbbət Balayev orta məktəbin hərbi hazırlıq



müəllimi Məmmədovla əlaqə saxlayıb uşaqları hərbi vətənpərvərlik ruhunda tərbiyə olmasına ciddi fikir veririk. Uşaqlarla tez-tez görüşlər keçirilir.

Uşaqlar üçün "Cənclik və hüquq", Uşaqlar bizim gələcəyimizdir", "Uşaqları qoruyaq", "Açıq rəf" təşkil edilmişdir. Kitabxanamızda "Bu həftə nə oxumalı", "Yeni kitablar" haqqında, "Qarabağda müharibənin iştirakçısı Namiq Əliyev və Süleyman Hüseynovla görüşlər keçirilmişdir.

"Azərbaycan" kənd kitabxanasında əsas vəzifələrdən biri də oxucu üçün kitab seçmək və ona kitab tövsiyə etməkdən ibarətdir. Oxucularla kütləvi işdə şifahi təbliğat formalarına-kitab müzakirələrinə, ədəbi-bədii gecələrə, biblioqrafiq xülasələrə, şifahi jurnallara kitab sərgilərinə diqqət yetirilir.

Ədəbi-bədii gecə isə eyni vaxtında çoxlu oxucuya xidmət etməyə imkan verir. Kitabxanamız kitab fondunun təşkili və ondan istifadə edilməsi işində yaxşı qurulmuşdur.

Kitabxanalararası obonetlərdən istifadə etməklə oxucular özlərinə lazım olan hər hansı bir ədəbiyyatı yaşadıqları ərazilərdəki kitabxananın fondunda tapmaq imkanına malik olur. Bunun üçün onlar sadəcə olaraq kitabxanalararası abonent qaydalarını öyrənir və ondan istifadə edir.

Kitabxanamız açıq rəf üsullarından da geniş istifadə edir. Bu oxucu tələbinin tez və hərtərəfli ödənilməsində, kitabxanaçı əməyinin yüngülləşməsində, zəngin kitab fondunun daha çox dövr etməsində mühüm rol oynayır.

Açıq əf üsulunun bir sıra üstün cəhətləri vardır. Çox vaxt kitabxanaçı özünə tanış olan müəyyən ədəbiyyatı oxucuya tövsiyə edir. Bəzən oxucu ədəbiyyatla yaxşı tanış olmadığı üçün tələb etdiyi kitabların əhatə dairəsi çox məhdud olur. Nəticədə ümumi kitab fondunun yalnız bir hissəsi dövr edir.

Açıq ərf üsulu kitabxana fondundakı ən yaxşı kitabları və zəngin kitab sərvətlərini bütünlükdə oxucuların istifadəsinə verir. Kitab fondu yenidən nəzərdən keçirilir, eyni adda köhnə, öz əhəmiyyətini itirmiş kitablar çıxarılır, eyni adda olan kitabların artıq nüsxələri əsas fonddan ayrılır və ehtiyat fonduna verilir.

Hesabat dövrü ərzində kitabxanada yay aylarında general M.Cəfərquliyevlə, xalq qəzetinin əməkdaşı "Qızıl qələm mükafatı" İsaq Əmənullayevə, gənc şair Balayar Sadid, Qədiməli Ağayevlə, şair jurnalist İdris Şükürlü ilə, SSRİ Səhiyyə işçisi ixtiraçı həkim Etibar Həşimov, həkim Əliqulu Əliyev, şair -jurnalist Qabil Həsənli, rejisor Mükafat Yaqubov yoldaşlarla görüşlər təşkil edilmiş və onlar kitabxanaya 200-ə yaxın kitab vermişlər. Respublikamızda yaşayan imkanlı şairlərdən, jurnalist, hüquqşünaslardan xahiş olunur ki, çap etdiyi kitablardan kitabxanamıza yeni nəşr olmuş kitablardan oxucuların ixtiyarına versinlər.

Kitabxanamız Respublikanın rayonlarından yüzlərlə məktublar alır. Onlar kitabxanamızla maraqlanır, keçirdiyi tədbirlərdən, daha doğrusu iş təcrübəsindən istifadə qaydalarından söz açır, məsləhətlər alırlar. Belələrindən sovet Gürcüstandan Nəsib Məmmədov, Axudan Mirzə Rzayev, Bakıdan Kövşər Səmədova, Baladdin Səmədov, Camal Hüseynov, İlham Hüseynov, Neftçaladan Qabil Həsənov, Əliqulu Əliyev, Lənkərandan Əhmədağa Əhmədov yoldaşlar daha tez-tez əlaqə saxlayıblar. O, cümlədən Lerikin ayrı-ayrı kəndlərindən gələn məktublar məni yaşadır və cavanlaşdırır.

Oxucular konfransı geniş, daha yaxşı keçirmək üçün Azərbaycan kənd orta məktəbinin baş müəllimi Səfər Əmənullayevin zəhməti daha böyükdür. O, hər vaxt oxucular konfransı keçirilməsində kitabxanaya yaxından kömək edir.

Bundan başqa mən də öz yaradıcılığımı məhz bu prinsiplər əsasında qurmuşam. Mənim müxtəlif vaxtlarda çap etdiyim yazılar Lerikdə çıxan "Kolxoz yolu", "Bolluq uğrunda", "Lerik" qəzetində eləcə də "Kommunist", "Xalq qəzeti", "Sovet kəndi", "Bərəkət", "Azərbaycan gəncləri", "Həyat", "Ədəbiyyat və incəsənət", "Qanun və zəka", "Açıq söz", "Açıq təvəkkür", " Pioner" qəzetlərində "Qolosi sədo" da və "Mədəni-maarif" "Kommunist", "Dialoq", "Azərbaycan qadını", "Azərbaycan pioneri", "Kənd həyatı", Təşviqatçı", "Müxbir" jurnallarında işıq üzü görüb.

Kitablar xalqımızın işıqlı gələcəyinin təminatçısıdır. Kitaba, kitabxanaçıya diqqət verməyən, bu sahəyə biganə yanaşan xalqın gələcəyi yoxdur.

Mən bundan sonra kitab təbliğatçısı kimi gənclik enerjisi ilə işləyəcəyəm.

***Ağaş MİRZƏZADƏ,***
***Lerik rayonundakı Azərbaycan kənd kitabxanasının müdiri, əmək veteranı***